Beynəlxalq Muğam Mərkəzində Əməkdar memar, Dövlət mükafatı laureatı Rasim Əliyevin 80 illik yubileyi qeyd olunmuşdur. Mərasimdə dövlət və hökumət rəsmiləri, millət vəkilləri, mədəniyyət və incəsənət xadimləri iştirak etmişlər.




# Təbiətlə insanın vəhdəti

Tədbiri giriş sözü ilə Memarlar İttifaqı idarə heyətinin sədri Elbay Qasımzadə açmışdır. O, yubilyarın Azərbaycan mədəniyyətinə verdiyi dəyərli töhfələrdən danışmışdır. Bildirmişdir ki, Beynəlxalq Memarlıq Akademiyasının, Rusiya Memarlıq və İnşaat Akademiyasının, Şərq Ölkələri Memarlıq Akademiyasının həqiqi üzvü olan R.Əliyev gözəl memarlıq nümunələrinin müəllifidir.

Mərasimdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Rasim Əliyevin "İstiqlal" ordeni ilə təltif olunduğunu diqqətə çatdırmışdır. Nazir bu münasibətlə yubilyarı təbrik etmiş, mədəni ictimaiyyət adından dövlətimizin başçısına minnətdarlığını bildirmişdir. "Rasim Əliyev haqqında danışarkən onun istedadlı memar və fırça ustası olması ilə yanaşı, böyük yaradıcılıq və şəhərsalma prosesinin təşkilatçısı kimi fəaliyyətini də vurğulamaq lazımdır", - deyən Əbülfəs Qarayev vurğulamışdır ki, ölkəmizin paytaxtı və bölgələrindəki bir çox tarixi abidələrdə Rasim Əliyevin dəstxətti aydın görünür. Uzun illər Bakının baş memarı vəzifəsində çalışan R.Əliyev bu gün həyatımızı zənginləşdirən, şəhər mühitimizi formalaşdıran abidələrin müəllifidir. Bu sırada Metropoliteninin Əhmədli stansiyasının interyeri, ecazkar memarlıq üslubu ilə seçilən müxtəlif tikililər var.

Diqqətə çatdırılmışdır ki, Rasim Əliyev Azərbaycanın hüdudlarından kənarda da ölkəmizi layiqincə təmsil etmişdir. Onun gördüyü işlər dövlətimiz tərəfindən hər zaman dəyərləndirilmişdir. Memarın 2009-cu ildə ölkə Prezidentinin sərəncamı ilə "Şərəf" ordeni, 80 illiyi münasibətilə isə "İstiqlal" ordeni ilə təltif edilməsi sənətkarın fəaliyyətinə verilən yüksək qiymətdir.

Dövlət Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarov, Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, Milli Məclisin deputatı Gülçöhrə Məmmədova yubilyara təbriklərini çatdırmış, yaradıcılığını yüksək qiymətləndirmişlər.

Tədbirdə görkəmli sənətkar haqqında çəkilmiş "Memar" filmindən fraqmentlər göstərilmişdir. Sonda çıxış edən Rasim Əliyev mərasimin təşkilində əməyi olan hər kəsə dərin təşəkkürünü bildirmiş, həyat və yaradıcılığında ulu öndər Heydər Əliyevin əvəzsiz rolunu xüsusi qeyd etmişdir. O, Prezident İlham Əliyevə və ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya memarlıq sahəsinə göstərdikləri böyük diqqət və qayğıya görə dərin minnətdarlığını çatdırmışdır.

Tədbirdə memarın müxtəlif illərdə ərsəyə gətirdiyi əsərlərinin fotosərgisi, eləcə də yağlı və sulu boya ilə çəkdiyi rəsmləri nümayiş etdirilmişdir.

E.NAĞIYEV